# Qədim türk xalqlarının metal işləmə sənəti

**Fidan Xıdırova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** fidanxidirova805@gmail.com

**Rəyçilər:** s.ü.f.d., dos. S.Q. Sadıqov,
s.ü.f.d., dos. E.N. Musayeva

**Açar sözlər:** qədim türk xalqları, İssık kurqanı, metal işləmə, zoomorf motivlər
**Ключевые слова:** древнего туркские народы, гунны, курганы Иссык, искусство металлического искусства
**Key words:** ancient Turkish people, Huns', Issik Kurqan, animalistic decoration

Qədim Türk xalqları hələ qədim dövrlərdən qızıldan, gümüşdən, dəmirdən, bürüncdən zinət və məişət əşyaları emal edirdilər. Üzərində müxtəlif bəzək texnikalarının icra olunduğu bu əsərlər qızıldan yaxud gümüşdən düzəldilmiş lövhələr, məişət əşyaları, mərasim qazanları, bayraq və çadır üçün dirəklər, müxtəlif çeşiddə və müxtəlif funksiyaları icra edəcək şəkildə düzəldilib. Bu nümunələrin üzəri "Animalistik üsluba" aid olan heyvan rəsmləri ilə bəzədilib.

Qədim türklərdə metal işləmə sənəti xüsusi ilə də dəmirçilik sənəti müqəddəs sayılırdı. Türk hökmdarları Bahar bayramında örs (metal döymə aləti) üzərində dəmir döyərək dini mərasim icra edirdilər. Şamanizm dövründəki türk xalqlarında dəmirçi ilə şamanın eyni ailədən olduğuna və dəmirin bədxah ruhları qovduğuna inanılırdı. Hun dövründəki Türk bədii metal sənətinin ən gözəl nümunələri çar I Pyotrın əmri ilə Orta Asiya kurqanlarından tapılan indiki dövrdə St. Peterburq Ermitaj muzeyində saxlanılan Hun dövrünə aid olan bədii metal əsərlərdir. Bu əsərlər ziynət əşyaları, kəmər bağları, qızıl lövhələr kimi sənət əşyalarında ibarət olub, müxtəlif simvolik mənalar daşıyan, şir, pələng, maral, qartal, at kimi fiqurlarla və heyvanların bir-biri ilə mübarizəsi kimi zoomorf motivlərlə bəzədilib.

Hun incəsənətində rast gəldiyimiz bədii metal sənəti əsərlərinin digər iki qrupu Minsk əsərləri ilə Mərkəzi Monqolustanın Ordos bölgəsindəki kurqanlardan çıxarılmış əsərlərdir. Ordos bürünc əsərləri, türk sənəti ilə Çin sənəti arasındakı əlaqələri ortaya çıxardır. Arxeoloq Bahaddin Ögəl və Andersona görə, Ordosdakı bürünc Hun əsərləri bunlardır: kiçik bıçaqlar, baltalar, zəncirlər, qaşıqlar, bəzək əşyaları, xəncərlər, düymələr, at və başqa heyvan fiqurları, iynələr və başqa bəzək əşyaları, maral və dəvə rəsmləri, qoyun və keçi rəsmli əsərlər, öküz fiqurları, yırtıcı quşların və kirpi rəsmlərinin əks olunduğu əsərlərdir.

Hun dövrünə aid olan bədii metal sənət nümunələrinin bir qismi arxeoloji qazıntılar nəticəsində Qazaxıstanda yerləşən Alma-ata və İssık kuqanlarından çıxarılıb. Müxtəlif metalişləmə üsulu ilə işlənmiş qılınc, xəncər, bıçaq kimi bir çoxu heyvan başlı və heyvan təsvirləriylə bəzədilmiş silahlar Hun bədii metal sənətində ön plandadır. Bundan başqa Hunlar Şaman dini inanclarına bağlı olaraq gön dəri ucuna kiçik heyvan fiqurlar birləşdirərək, çadırlarının üstünə bağlayırdılar. Hunların inanclarına görə bu bütlər onları şər qüvvələrdən qoruyur. Bu dövrdəki qılınclar, sonrakı dövrlərdəki Türk qılınclarının prototipləridir. Arxeoloji qazıntılar zamanı kurqanlardan əyri qılınclarla yanaşı, düz qılınclar da çıxarılmışdı. Eyni zamanda ox ucları və kaman da ən çox rast gəlinən silahlardandır. Digər tərəfdən at yəhər dəstlərinə aid metal əşyalar, müxtəlif qablar və zinət əşyaları da kurqandan çıxarılan dəyərli əsərlərdir. Bundan başqa metaldan hazırlanmış müxtəlif əşyalar və kəmər başlıqları animalistik üsluba uyğun təsvirlərlə bəzədilib. Hunlarda Bədii metal sənətinə aid nümunələr

dəmir dövründə daha da inkişaf. Bu dövrdəki əsərlərdə atlar üçün bəzək dəstləri, kəsici alətlər, silahlar, parça və ya dəri üzərinə tikilmiş dəbilqələr, əkinçilik alətləri, bəzək əşyaları həm zomorf motivlərlə həm də bitki təsvirləri ilə bəzədilirdi.

Çin tarixi mənbələrinə görə e.ə.2000-ci ildən etibarən Ön Asiyada yaşayan Türklər, böyük Hun dövlətinin əsasını qoyduqdan sonra Hunlar inkişaf etdirdikləri özlərinə məxsus incəsənətlərini digər türk tayfalarının qatqıları ilə bütün Orta Asiyaya və Ön Asiyaya yayaraq Hun İncəsənəti adı verilən incəsənət birliyini yaratdılar. Ön Asiyada Türklərin yaşadıqları və ya dövlət qurduqları bölgələrdə zəngin metal mədənləri olduğundan bədii metal sənəti inkişaf etmişdi. Şaman dinində metalların və dəmirin müqəddəs sayılması bu materiallardan geniş istifadə olunmasına təkan verirdi. Digər tərəfdən Türk dövlətlərinin bu qədər geniş bölgələrə hakim olmasında metaldan düzəldilmiş silahların böyük rolu olduğundan bu silahların bir qismi eyni zamanda sənət əsərləridir.

Bədii Metal sənəti əsərlərinin ən gözəl nümunələri, hökmdar və onun yaxınlarının daşıdığı və çox zaman ölü ilə birlikdə kurqanlarda dəfn olunan, mərasimlərdə və zadəganların yaşayışında istifadə olunan qızıl əşyalardır. Hökmdarlıq və ya hakimiyyət əlaməti olan taclar-diademalar isə bu baxımından ən diqqət çəkən nümunələrdir. Türk xalqları incəsənətinin ən erkən dövrlərində taclar hökmdar ailəsi və hakim zümrə üçün vacib bəzək əşyası idi. Qazaxıstan ərazisində İssık kurqanında aparılan arxeoloji qazıntılar nəticəsində Hun şahzadəsi olduğu güman edilən cəsəd tapılıb. Cəsədin üstündə qızıldan bəzədilmiş geyim və başında böyük külah adlandırılan qızıldan düzəldilmiş başlıq tapılıb. Başlığın mərkəzində kiçik heyvan heykəli yer alıb. Bundan başqa başlıq ox ucları, qızıl yarpaqlar, dağ qıvrımları üzərində dünya ağacında quşlar, dağ keçisi kimi mifik və simvolik təsvirlərlə bəzədilib. Başlığın önündə buynuzlu-qanadlı atlar simmetrik olaraq təsvir edilib.

Qazaxıstan ərazisində Yeddi su əyalətinin Alma ata adlı şəhəri yaxınlığındakı Tanrı dağları silsiləsi ilə bir vadidə yerləşən kurqandan qazıntılar zamanı tapılan “Karqalı Diademası” adıyla tanınan tac, Hun incəsənətinə aid nadir tapıntılardan biridir. Bu kurqanın bir Şaman Hun qadına aid olduğu hesab olunur. XVIII əsrdə qarət olunan bu kurqandan Hun dövrünə aid olan geyim və bəzək əşyaları tapılıb. Burada tapılan əşyaların 300-ə yaxını qızıldan düzəldilib. “Karqalı diademası”nın Hunlara məxsus olduğu bilinsə də bəzi alimlər bu diademanı Saxa türklərinə aid olduğunu deyirlər. Bernştam Karqalı diademası olaraq tanıtdığı əsərin üzərində Türk-Moğol mif və dastanlarına əsaslanan səhnələrin əks etdirilməsinə istinadən bu kurqanın qədim Hunlara aid olduğunu deyir. İlk kəşf edildiyi zamandan etibarən nadir tapıntı olaraq tanınan diadema digər mürəssə-tac nümunələrindən fərqlənir. Xüsusilə də Asiya Hunları üçün nadir tapıntı hesab edilir. Bu əsər də mürəssə üslubunda işlənib. Bu üslubda işlənən əsərlərdə keyfiyyətli əl işi ilə yanaşı insan və heyvan fiqurlarının yanında və üzərində açılan oyuqlara müxtəlif rənglərdə dəyərli və yarıdəyərli daşların yerləşdirilməsi surəti ilə rəngli görüntü əldə edilirdi. Buna görə “Karqalı Diadema” da bu üsluba aid əsərlərdən sayılır. Karqalı diadema biri daha kiçik olmaqla qızıldan düzəldilmiş iki hissədən ibarətdir. Sol hissəsi 15 sm sağ hissə isə 20 sm.-dir .

Oyma texnikası ilə işlənmiş diademanın üzərində dini və mifik səhnələr təsvir edilib. Sənətkarlar insan və heyvan fiqurlarının arasında boşluq qoyaraq aralarına qıvrımlı bitki təsvirləri yerləşdiriblər. Əsərdə realistik heyvan fiqurlarından başqa qanadlı heyvan fiqurları da təsvir olunması əsərin dini və mifik mövzuya həsr olunduğunu göstərir. Yuxarıda uçan quşlar, maral, dağ keçisi, çöl donuzu kimi realistik heyvan fiqurları qanadlı heyvan fiqurları isə mifik heyvanları ifadə etməkdədir .

Əsərin sol hissəsində maral, onun qarşısında ceyran, ikisi arasında yuxarıda uçmaqda olan

bir quş, qarşıda atın belində başını arxadan bu heyvanlara çevirmiş pelerini budağa dolanmış insan fiquru önündə və sol tərəfdə bir qaya üzərində durmuş qanadlı at fiqurlarının əhatəsində təsvir olunub. Əjdər atın üzərindəki insan fiquru uzun saçları başı arxasında buynuz şəklində toplanmış, pelerinli və beli qurşaqlı arxalıq və çəkmə geyinmiş bir insan fiqurudur.

Tacın daha uzun olan sağ hissəsində müxtəlif heyvanlar üzərində üç insan fiquru eyni şəkildə təsvir olunub. Soldakı kiçik hissədəki insan fiquru beldən sonrası əjdahaya bənzəyən, ön hissəsi qanadlı ata bənzəyən əfsanəvi heyvan üzərində təsvir olunub. Sağ hissədə isə buynuzunun ucu qırıq, iki buynuzlu kiçik gövdəli bir heyvan üzərində insan fiquru təsvir edilib. Bu insan fiquru ucunda lotus çiçəyinin yarpağı olan borunu ağzına alıb sanki çalırmış kimi başını qaldırmış vəziyyətdə təsvir edilib. Onun sol tərəfində çöl donuzu və önündə iri buynuzlu dağ keçisi üzərində sağ əlini irəli doğru uzadıb qarşısındakı budağı tutmağa çalışan insan fiquru təsvir edilib.

Bunu keçdikdən sonra öndə və sağda yenə qanadlı at fiquru təsvir edilib, davamında isə daha böyük bir atın üstündə eyni libaslı fiqur yerləşdirilib. İnsan fiquru ağzı açıq əjdahanın buynuzundan tutub. Qanadlı əjdahanın gövdəsinin arxa kəsimi də yırtıcı heyvan kimi təsvir olunub. Bu hissədə də uçan quşların təsvirinə rast gəlinir. Daha geniş hissə olduğuna görə ən sağdakı insan fiquruna doğru uçan quşdan başqa, onun qarşısındakı insan fiqurunun da qarşısında yuxarıya uçan quş göstərilib.

Diademanın hər iki tərəfində insan və heyvan fiqurları arasında boşluqlar qıvrılmış budaqlarla bəzədilib. Diadema heyvan və insan fiqurları bitki qıvrımları üzərində dairəvi, oval şəkilli oyuqlar açılaraq, müxtəlif tonlarda firuzəyi və qırmızı rəngli daşlarla bəzədilib. Qızıldan düzəldilmiş bu əsərdə basma qabartma rəngli daşlarla bəzədilmiş texnikaları tətbiq olunub. Bu tacın üzərindəki təsvirlər türk mifologiyasından alınıb. Karqalı diadema adlandırılan bu tac qızıldan düzəldilmiş, mürəssə üslubunda bəzədilmiş Hun incəsənətinin ən gözəl nümunələrindəndir.

Hun dövrünə aid edilən başqa mürəssə üslubunda işlənmiş əsərə rast gəlirik. Avropa Hunları incəsənətinə aid edilən Ksorna diademi adı ilə tanınan tac da mürəssə üslubuna aid edilən əsərlərdəndir. Eyni Karqalı diademdə olduğu kimi bu tacın da üzərində açılan boşluqlara rəngli daşlar yerləşdirilib və dünya ağacının iki tərəfində yerləşdirilmiş qanadlı heyvan fiqurları kimi əfsanəvi fiqurlarla bəzədilib.

Hunlara aid qızıl zinət əşyaları ilə yanaşı tunc və mis məişət əşyalarının da bir qismi günümüzə qədər gəlib çatmışdır. Hunlara aid olan kurqanlardan qazıntılar zamanı tunc və mis qazanlar da tapılıb. Bu qazanlardan tanrılara qurban vermə ayini və ya mərasimlərdə istifadə edirdilər. Qazanların üzərində ov səhnələri təsvir edilib. Hun dövrünə aid edilən Yenisey çayı yaxınlığında olan Uybat Qızılqaya adlı qaya rəsmlərində qazan təsvirlərinə rast gəlirik. Bu qaya rəsmlərində şamanların tanrılara qurban vermə mərasimləri təsvir olunub. Təsvirlərə əsasən nəticəyə gəlirik ki bu nümunələr Hunlara aiddir.

Tunc dövründə Mərkəzi Asiyada tunc qazanlara rast gəliriksə, dəmir dövründən daha çox saylarının artdığını görürük. Hun dövrünə aid olan Noin-Ula kurqanlarından 6 nömrəli kurqanda da, mis və tunc qazanlar tapılıb. Buna bənzər nümunələr Ön Asiyada arxeoloji qazıntılar zamanı Pazırık kurqanlarından da tapılıb. Qazaxıstan və Qırğızıstan muzeylərində saxlanılan Hun dövrünə aid tunc qazan nümunələrinin çoxu sadə bəzəkli və ya tamamilə bəzəksizdir. Bəzi qazan nümunələri isə zoomorf motivlərlə bəzədilib.

Bu tunc qazanlar keramik küpləri xatırladan formada düzəldilib. Tunc qazanların ən geniş yayılmış tipi Hun dövrünə aid olan iki gözəl nümunəsi son zamanlarda aparılan arxeoloji qazıntılar nəticəsində işıq üzünə çıxardılıb. Bu qazanlar Şərqi Tanrı dağları bölgəsində

yerləşən Urumçidə tapılıb və orada muzeydə saxlanılır. Bu qazan nümunələri gövdəsi enli, ağız ilə dibləri arasındakı məsafənin çox olduğu, oval formanı xatırladan qazanlardır. Həmin muzeydə sərgilənən başqa bir qazan isə ağzı ilə dibi arası qısa və dəyirmi gövdəli sənət nümunəsidir.

Bəhs edilən ilk iki qazandan birincisi çox sadə, gödəsinin altında qabartma bir sırası olan və ağız hissəsinə yerləşdirilmiş dik halqa qulplu qazandır. İkinci nümunə isə həm üzərindəki sıralı qabartmalar ilə həm də simvol sayılan qabartmalara və qulp rolunu icra edən qulağa bənzər çıxıntılara sahibdir. Qeyd edilən bu simvollar Hun qəbilələrinin hər birinin özünəməxsus simvollarıdır. Arxeoloji qazıntılar nəticəsində tapılan bu sənət nümunələri Hunlarda zərgərliyin, metalişləmə sənətinin inkişaf etdiyini göstərir.

**Məqalənin aktuallığı.** Qədim türklərdə metal işləmə sənəti sahəsində əvəzsiz nümunələrin araşdırılması baxımından məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə qədim türklərin metal işləmə sənətində ayrı-ayrı nümunələri tədqiq edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. S.Süleymanova. Türk xalqları tarixi Bakı, 2011.
2. N.Diyarbekirli. İslamiyyetdən önce Türk sanatı. S.18-19.
3. N.Diyarbekirli. Hun sanatı.1972.
4. Y.Çoruhlu. Erken devir Türk sanatı. İstanbul, 2017.
5. K.Акишев. Древне Золото Казакстана 1983 The Ancient Gold of Kazahstan.1983.
6. E.D.Philips.The Royal Hordes Nomad of the Steppes, Thames and Hudson. London, 1965.


**Ф. Хыдырова**

## Металлическое искусства древнего турецкого народа
## Резюме

Образцы металлического искусства занимало особое место в декоративно-прикладном искусстве древнего турецкого народа. Примеры художественного металлического искусства, которое мы находим в искусстве Гуннов, являются тому подтверждением. Часть произведений искусства гуннов была найдена в Алма-Атинских курганах Иссык в Казакстана в резултате раскопок археологов. Самые красивые образцы этих художественных произведений часто связаны с ритуалами.

**F. Xıdırova**

## Metal of the ancient Turk people art of working
## Summary

The metallic art was a special place in the decorative art was a special place in the decorative art of ancient Turkish people. Examples of the artistic metal art founded in the art of Huns are evident. Part of art samples from Huns was found in Alma-Ata Issik kurgans in Kazakhstan as a resolute of excavations of archeologists. The most beautiful examples of these works of art are the things used by ruler and his relatives during the ceremonies buried in the burials and the living things of the nobility often with the dead.